**"Təsdiq edirəm"**

Azərbaycan Respublikasının
Vergilər Nazirliyi

**Nazir**______________ **F. Məmmədov**

"01" fevral 2012-ci il

*Vergilər Nazirliyi tərəfindən Nəzarət-kassa aparatlarının qeydiyyata alınması və qeydiyyatdan çıxarılması ərizələrinin elektron formada təqdim edilməsi*

**üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Nəzarət-kassa aparatının qeydiyyata alınması və qeydiyyatdan çıxarılması ərizələrinin elektron formada təqdim edilməsi*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu xidmət vergi orqanları tərəfindən vergi ödəyicilərinin Nəzarət-kassa aparatlarının elektron formada qeydiyyata alınması və qeydiyyatdan çıxarılmasını əhatə edir*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *Vergi Məcəlləsinin 16-cı maddəsi*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyi*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Sahələrarası Texniki Xidmət Mərkəzləri (STXM)*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi: *- Tam***
*Xidmətin göstərilməsi prosesi tamamilə informasiya sistemləri tərəfindən həyata keçirilir.*

**1.7. Elektron xidmətin icra müddəti:** *Nəzarət-kassa aparatlarının qeydiyyata alınması və qeydiyyatdan çıxarılması ərizələrinin elektron formada təqdim edilməsi prosesi cəmi bir neçə dəqiqə ərzində başa çatır*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi**: *NKA-nın qeydiyyata alınması ərizəsi işlənildikdə vergi ödəyicisinin Nəzarət- kassa aparatı qeydiyyata alınır və bu barədə ona Bildiriş göndərilir, NKA-nın qeydiyyatdan çıxma ərizəsi işlənildikdə isə vergi ödəyicisinə 3 gün ərzində akt tərtib ediləcəyi və NKA-nın qeydiyyatdan çıxarılacağı barədə Bildiriş göndərilir.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnteraktiv*

**2.2. Elektron xidmət üzrə ödəniş**: *Ödənişsiz*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Vergi ödəyiciləri olan fiziki və hüquqi şəxslər, nümayəndəlik, filial və bölmələr*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *http://www.e-taxes.gov.az/*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

- *https://www.e-taxes.gov.az/dispatcher?menu=ekarg&submenu=2&nav=ekarg*
- *195 Telefon Məlumat Mərkəzi*
- *AVİS Yardım Masası*
- *office@taxes.gov.az,*
- *403 87 28*

**2.6 Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

*NKA-nın qeydiyyata alınması və qeydiyyatdan çıxarılması barədə ərizə vergi orqanına elektron formada həm vergi ödəyicisi tərəfindən, həm də müqavilə əsasında vəkil olunmuş Servis Texniki Xidmət Mərkəzi (bundan sonra STXM) tərəfindən göndərilə bilər.*

*Ərizə vergi ödəyicisi tərəfindən təqdim olunduqda ona elektron formada (PDF fayl şəklində) aşağıdakı sənədlər əlavə olunur:*

- *STXM-in NKA-nın quraşdırılması və ya qeydiyyatdan çıxarılması barədə aktı;*
- *Ərizənin təqdim olunma tarixinə NKA-nın fiskal yaddaşının göstəricisini əks etdirən çek;*
- *Nəzarət-kassa aparatında quraşdırılmış elektron məsafədən ötürmə qurğusu və ya elektron nəzarət lenti barədə STXM-in aktı.*

*Ərizə STXM tərəfindən vergi orqanına elektron formada göndərildikdə isə yuxarıda göstərilən sənədlərə vergi ödəyicisi ilə STXM arasında bağlanmış Müqavilə əlavə olunur.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

*3.1 Sistemdə göstərilən interaktiv xidmətlər istifadəçilər üçün daim açıqdır, sistemə müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.*

*Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir.*

**3.2 İnteraktiv xidmətlər üçün sorğu:**

*İnteraktiv xidmətlin istifadəçilərinin Vergilər Nazirliyi tərəfindən verilmiş Şifrə, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır.*

**3.2.1. Sorğunun formalaşdırılması:**

*Nəzarət kassa aparatının qeydiyyata alınması və ya qeydiyyatdan çıxarılması ərizəsi İnternet Vergi idarəsi portalının Onlayn Kargüzarlıq bölümü üzərindən işlənilir. Bu məqsədlə Yeni müraciət düyməsi sıxılır və açılan pəncərədə*

- *"Kimə" siyahısından - Vergilər Nazirliyi*
- *"Müraciətin növü" siyahısından - Ərizə*
- *"Sənədin növü" siyahısından - NKA-nın qeydiyyata alınması və NKA-nın qeydiyyatdan çıxarılması ərizələrindən biri seçilir və Qəbul düyməsi sıxılır.*

*a) Əgər NKA-nın qeydiyyata alınması ərizəsi seçilmişdirsə açılan ekranda əməliyyatlar aşağıdakı ardıcıllıqla yerinə yetirilir:*

- *Obyekt kodu seçilir*
- *NKA-nın markası seçilir*
- *Zavod nömrəsi daxil edilir*
- *Sayğacın ilk göstəricisi daxil edilir*
- *Qeydiyyat tarixi daxil edilir*
- *STXM aktının tarixi daxil edilir*
- *Elektron qurğunun tipi seçilir*
- *Elektron qurğunun nömrəsi daxil edilir*
- *Fiskal yaddaşın göstəricisi daxil edilir*
- *Quraşdırılma aktının tarixi daxil edilir*
- *STXM-in NKA quraşdırma aktı elektron formada əlavə olunur*
- *NKA-nın Fiskal yaddaş çeki elektron formada əlavə olunur*
- *STXM-in EMQ quraşdırma aktı elektron formada əlavə olunur (əgər quraşdırılıbsa)*
- *STXM ilə müqavilə elektron formada əlavə olunur ( ərizə STXM tərəfindən təqdim edildiyi təqdirdə)*

*b) Əgər NKA-nın qeydiyyata çıxarılması ərizəsi seçilmişdirsə açılan ekranda əməliyyatlar aşağıdakı ardıcıllıqla yerinə yetirilir:*

*- Obyekt kodu seçilir*
*- NKA-nın markası seçilir*
*- Zavod nömrəsi daxil edilir*
*- Qeydiyyatdan çıxma tarixi daxil edilir*
*- STXM-in plombun zədələnməməsi aktı elektron formada əlavə olunur*
*- NKA-nın Fiskal yaddaş çeki elektron formada əlavə olunur*
*- STXM-in EMQ aktı elektron formada əlavə olunur (əgər quraşdırılıbsa)*

*Sonra daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir.*

*İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün Qəbul düyməsini sıxır. Əks halda, imtina etmək üçün İmtina düyməsi icra edilir.*

*Təsdiqdən sonra vergi ödəyicisinin elektron ünvanına "NKA-nın qeydiyyata alınması" və ya "Qeydiyyatdan çıxarılması" barədə Bildiriş göndərilir.*

3.2.2. **Sorğunun qəbulu:**

*Ərizə məlumatları sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16 rəqəmli qeydiyyat nömrəsi verilir.*

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

3.3.1. **Sorğunun yerinə yetirilməsindən imtina halları:**

*Sistem tərəfindən NKA-nın quraşdırıldığı təsərrüfat subyekti üzrə vergi ödəyicisinin uçotda olub-olmaması, NKA-nın markasının müvafiq dövlət reyestrinə daxil edilib-edilməməsi, həmin NKA-nın digər obyektlərdə qeydiyyatda olub-olmaması, POS-terminal quraşdırılması məqsədəmüvafiq hesab edilən obyektlərdə POS-terminalın quraşdırılıb-quraşdırılmaması, vergi ödəyicisi hüquqi şəxs olduqda məlumat bazasında onun rəhbərinin olub-olmaması yoxlanılır. Əgər yuxarıda göstərilən şərtlərdən biri düz olmazsa, qeydiyyat ərizəsinin vergi orqanına göndərilməsinə yol verilmir.*

*Ərizəyə PDF formatda əlavə olunmuş sənədlərdə kənarlaşmalar aşkar edildikdə xidmətin icrasından imtina edilir.*

*Büdcəyə borcu olan vergi ödəyicisinin təsərrüfat subyektində quraşdırılmış NKA-nın qeydiyyatdan çıxarılmasına icazə verilmir.*

**3.4. Sorğunun icrası:**

3.4.1. **Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

*- İstifadəçi adı, şifrə və parola görə vergi ödəyicisinin sistemdə təyin edilməsi (identikləşdirilməsi), məsul şəxs- Vergilər Nazirliyi;*

- *Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektin) təyin edilməsi (identikləşdirilməsi), məsul şəxs - Vergilər Nazirliyi.*
- *Ərizəyə PDF formatda əlavə olunmuş sənədlərin düzgünlüyünün yoxlanılması, məsul şəxs - Vergilər Nazirliyi.*
- *NKA-nın qeydiyyata alınması və NKA-nın Qeydiyyat Vərəqinin hazırlanması, məsul şəxs - Vergilər Nazirliyi.*
- *NKA-nın plomlanması aktının tərtib edilərək sistemə daxil edilməsi, məsul şəxs - Vergilər Nazirliyi*
- *NKA-nın Qeydiyyat Vərəqəsinin hazırlanması və vergi ödəyicisinin elektron ünvanına göndərilməsi (prosesin sonu), məsul şəxs Vergilər Nazirliyi.*

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

*Xidmətin yerinə yetirilməsinə nəzarəti Vergilər Nazirliyi həyata keçirir və bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə 195 Telefon Məlumat Mərkəzi və AVİS Yardım Masası fəaliyyət göstərir.*

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**
**3.6.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat;**

*Vergi ödəyicisi tərəfindən elektron formada təqdim edilmiş nəzarət-kassa aparatının qeydiyyata alınması və qeydiyyatdan çıxarılması ərizələrinin qəbulundan imtina edilməsinə görə vergi ödəyicisi qanunvericiliyə uyğun olaraq inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilər.*